**UDC:** 94.(479.24).
**LBC:** 63.3(0=…)
**MJ №** 224
10.33864/2617-751X.2024.v7.i3.89-98

# A New Era in Azerbaijan-Pakistan Relations

**Jamil Guliyev**[*]

**Abstract.** In the course of Azerbaijan's multi-regional foreign policy based on national interests, strengthening relations with countries in the vast Islamic geography with closer ties occupies a special place. Following the political will of President Ilham Aliyev, our republic continuously contributes to the strengthening of Islamic solidarity in the world, based on its historical traditions and national and moral values. Several countries in the world have not established diplomatic relations with Armenia due to its policy of aggression. Pakistan is among such countries, reflecting the stance of a brotherly nation. Expressing his satisfaction with this, President Ilham Aliyev characterized the bilateral relations as follows: "Our relations are the relations between two brotherly countries." Prime Minister Mohammad Shahbaz Sharif compared Pakistan and Azerbaijan to two hearts in one body, saying: "There are brotherly and friendly relations between Azerbaijan and Pakistan." Our relations are based on mutual support, sincerity, and respect. The shared faith, similarity of national and moral values, and several historical factors have always connected the societies of Azerbaijan and Pakistan. Throughout history, Azerbaijan has shown goodwill towards Pakistan, and Pakistan towards Azerbaijan.

**Keywords:** Azerbaijan, Pakistan, friendship, independence, relationship, brotherhood.

---

[*] Doctor of philosophy in historical sciences,
Lankaran Regional Scientific Center of the National Academy of Sciences of Azerbaijan; Lankaran, Azerbaijan
E-mail: qcamil@mail.ru
https://orcid.org/0009-0006-8736-0667

**To cite this article:** Guliyev, J. [2024]. A New Era in Azerbaijan-Pakistan Relations. *“Metafizika” journal, 7*(3), pp.89-98.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.89-98

***Article history:***
*Received: 14.06.2024*
*Accepted: 31.07.2024*

**УДК:** 94.(479.24).
**ББК:** 63.3(0=…)
**MJ №** 224
10.33864/2617-751X.2024.v7.i3.89-98

# Новая эра в Азербайджано-Пакистанских отношениях

**Джамил Кулиев***

**Абстракт.** В ходе многорегиональной внешней политики Азербайджана, основанной на национальных интересах, особое место занимает линия укрепления отношений со странами, расположенными на обширной исламской географии и имеющими более тесные связи. Согласно политической воле Президента Ильхама Алиева, наша республика вносит постоянный вклад в укрепление исламской солидарности в мире на основе своих исторических традиций и национально-нравственных ценностей. В мире есть несколько стран, которые не установили дипломатические отношения с Арменией из-за ее агрессивной политики. Пакистан также входит в число таких стран. Это позиция братской страны. Выразив удовлетворение этим, Президент Ильхам Алиев охарактеризовал двусторонние отношения следующим образом: «Наши отношения - это отношения между двумя братскими странами». Премьер-министр Мохаммад Шахбаз Шариф сравнил Пакистан и Азербайджан с двумя сердцами в одном теле. Он сказал: «Между Азербайджаном и Пакистаном существуют братские и дружественные отношения». Наши отношения основаны на взаимной поддержке, искренности и уважении». Тождество веры, сходство национальных и нравственных ценностей, а также ряд исторических факторов всегда связывали общества Азербайджана и Пакистана. Во все периоды истории Азербайджан проявлял добрую волю к Пакистану, а Пакистан к Азербайджану.

**Ключевые слова:** Азербайджан, Пакистан, дружба, независимость, отношения, братство

---

* Доктор философии по историческим наукам,
Лянкяранский Региональный Научный Центр Национальной Академии Наук Азербайджана; Ленкорань, Азербайджан
E-mail: qcamil@mail.ru
https://orcid.org/0009-0006-8736-0667

**Цитировать статью:** Кулиев, Дж. [2024]. Новая эра в Азербайджано-Пакистанских отношениях. *Журнал «Metafizika», 7(3),* с.89-98.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.89-98

***История статьи:***
*Статья поступила в редакцию:* 14.06.2024
*Отправлена на доработку:* 01.07.2024
*Принята для печати:* 31.07.2024

**UOT:** 94.(479.24).
**KBT:** 63.3(0=…)
**MJ №** 224
10.33864/2617-751X.2024.v7.i3.89-98

# Azərbaycan-Pakistan münasibətlərində yeni dövr

**Cəmil Quliyev***

**Abstrakt.** Azərbaycanın milli maraqlar üzərində qurulan multiregional xarici siyasət kursunda geniş İslam coğrafiyasında yerləşən ölkələrlə əlaqələrin daha sıx bağlarla möhkəmləndirilməsi xətti xüsusi yer tutur. Respublikamız Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq tarixi ənənələrinə, milli-mənəvi dəyərlərinə əsaslanmaqla dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Dünyada bir neçə dövlət var ki, Ermənistanın işğalçılıq siyasətinə görə bu ölkə ilə diplomatik münasibətlər qurmayıb. Pakistan da belə ölkələr sırasında yer alır. Bu isə qardaş ölkə mövqeyidir. Bundan məmnunluğunu bildirən Prezident İlham Əliyev ikitərəfli əlaqələri belə səciyyələndirib: “Bizim münasibətlərimiz iki qardaş ölkə arasında olan münasibətlərdir”. Baş nazir Məhəmməd Şahbaz Şərif isə Pakistanla Azərbaycanı bir bədəndə iki ürəklə müqayisə edib. O bildirib: “Azərbaycan ilə Pakistan arasında qardaşlıq və dostluq əlaqələri var. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub”. Etiqad eyniliyi, milli-mənəvi dəyərlərin oxşarlığı, bir sıra tarixi amillər Azərbaycan və Pakistan cəmiyyətlərini həmişə bir-birinə bağlayıb. Tarixin bütün dönəmlərində Azərbaycanda Pakistana, Pakistanda isə Azərbaycana xoş mərama əsaslanan münasibət sərgilənib.

**Açar sözlər:** Azərbaycan, Pakistan, dostluq, müstəqillik, münasibət, qardaşlıq

* Tarix elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan Milli Elmlər Akademiyası Lənkərən Regional Elmi Mərkəzi; Lənkəran, Azərbaycan
E-mail: qcamil@mail.ru
https://orcid.org/0009-0006-8736-0667

**Məqaləyə istinad:** Quliyev, C. [2024] Azərbaycan-Pakistan münasibətlərində yeni dövr. *“Metafizika” jurnalı, 7*(3), səh.89-98.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.89-98

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 14.06.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 01.07.2024*
*Çapa qəbul edilmişdir: 31.07.2024*

## 1.Giriş

Azərbaycan öz tarixi müstəqilliyini bərpa etdikdən sonra tərəfdaşlıq münasibətləri qurduğu dost ölkələrdən biri də müsəlman dünyasının nüfuzlu dövlətlərindən olan Pakistan İslam Respublikasıdır. Azərbaycan və Pakistan bir-birinə qədimdən yaxın dostluq əlaqələri ilə bağlıdır. Pakistan Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan (1991-ci il dekabrın 12-si) dövlətlərdən biri olub. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulub. Bundan sonra əlaqələr daim inkişaf etdirilib və bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəlib. 1993-cü ilin martında Pakistan Bakıda, 1997-ci ilin avqustunda isə Azərbaycan İslamabadda səfirliklərini təsis edib. Azərbaycan Prezidenti İlham Əliyevin bu il iyulun 11-də Pakistan İslam Respublikasında dövlət səfəri zamanı hər iki ölkənin bir-birinin yanında olmasını təsdiqləyən görüntülər ictimaiyyətdə böyük məmnunluq doğurub. İyulun 11-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif əməkdaşlıqla bağlı mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə çıxış edən Baş nazir demişdir: "Zati-aliləri, bu gün çox məhsuldar təkbətək görüşümüz və sonra geniş tərkibdə görüşümüz oldu. Bu müzakirələrin qarşılıqlı inam və etimad, hər iki ölkənin irəli getməli olduğuna və hələ də kiçik olan, təqribən yüz milyon dollardan az olan və dostluğumuzu, qardaşlığımızı əks etdirməyən ticarət, birgə investisiyalar, birgə əməkdaşlıq sahələrində, qarşılıqlı fayda verən sahələrdə daha yüksək nailiyyətlər qazanmalı olduğuna dair təcililik və sarsılmaz dəstək əsasında aparıldığından çox məmnunam. Əlbəttə ki, münasibətlərimiz onilliklər ərzində davam edir və hər iki ölkə arasında bayaq qeyd olunduğu kimi, bu münasibətlər səmimi xarakter daşıyır. Biz fərqli dillərdə danışırıq, biz urdu dilində, siz Azərbaycan və ya türk dilində danışırsınız. Biz bir-birimizdən uzaqda yaşayırıq, lakin inanın mənə, bizim qəlblərimiz bir yerdə döyünür, fərqli dillərimizin olmasına baxmayaraq, biz birlikdə danışırıq, biz bir yerdə düşünürük, biz ikitərəfli və çoxtərəfli münasibətlərimizə aid bütün məsələlərdə bir-birimizin yanındayıq". Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edərək Pakistan İslam Respublikası ilə ikitərəfli əlaqələrin inkişafı ilə bağlı öz fikirlərini bölüşərək bildirmişdir: Bizim qardaşlığımız xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır. Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb və biz Bakı-İslamabad, Bakı-Kəraçi, Bakı-Lahor arasında birbaşa uçuşları artıq müzakirə etdik. Bir sözlə, Pakistandan gələn insanlar İçərişəhəri ziyarət edəndə və Karvansaranı görəndə onu "Multan" adlandırırlar. Beləliklə, onlar bizim əsrlər boyu bir-birimizə necə bağlı olduğumuzu anlayırlar. Həqiqətən, bu bağlantı böyük sərvətdir. Bu gün Pakistan ilə Azərbaycan arasında

qardaşlıq münasibətləri həmin bünövrəyə əsaslanır. Biz qardaşıq və dostuq. Biz hər işdə, istənilən beynəlxalq təsisat daxilində, hər beynəlxalq məsələdə bir-birimizi dəstəkləyirik. Məsələn, irəli sürdüyümüz təşəbbüsdə qardaşlarımız bizi dəstəkləyir və eyni dəstək qarşılıqlı olur. Cəmmu və Kəşmir məsələsində bizim birmənalı dəstəyimiz qardaşlığımıza, eləcə də beynəlxalq hüquqa olan sadiqliyimizdir. Kəşmirlilərin hüquqları onilliklər boyu diqqətdən kənarda qalmış, pozulmuşdur. BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin necə həll olunmasını aydın şəkildə təsvir edir. Lakin əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yoxdur. Ancaq qardaş və dost kimi biz Sizinlə, Kəşmirdəki qardaşlarımızla hər zaman yan-yana olacağıq, beynəlxalq hüququn və ədalətin tərəfində dayanacağıq. Mən əminəm ki, ədalət zəfər çalacaq. [Azərbaycan-Pakistan münasibətlərində yeni dövrün başlanğıcı, s.5].

Dövlət başçısı bəyanatında 30 ildən artıq işğal altında olan torpaqlarımızın 2020-ci ilin payızında Ermənistan silahlı birləşmələrindən azad edilməsində Pakistan İslam Respublikasının göstərdiyi siyasi dəstəyə xüsusi önəm verərək demişdir: “Biz, bütün Azərbaycan xalqı yaxşı bilir ki, işğal dövründə Pakistan hər zaman yanımızda olan bir sıra ölkələrdən biri olmuşdur. İkinci Qarabağ müharibəsi-Vətən müharibəsi zamanı siyasi dəstək və Azərbaycanın haqlı mövqeyini dəstəkləyən Pakistanın yüksəkrütbəli rəsmilərinin birmənalı bəyanatları bizə əlavə güc-qüvvət verdi. Pakistan məhz işğala görə Ermənistanla diplomatik münasibətləri qurmayan ölkədir”.

## 2.İqtisadi əlaqələr

2020-ci ilin noyabrında Qələbəmizi qeyd etdiyimiz zaman xalqımızın əllərində “Azərbaycan, Pakistan və Türkiyənin bayraqları var idi”.

Görünən odur ki, Azərbaycan-Pakistan əlaqələri hər iki ölkənin dövlət rəhbərlərinin səyləri nəticəsində özünün ən yüksək dövrünü yaşayır. Cənubi Qafqazda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ikitərəfli və çoxtərəfli əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır. Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər. Pakistan şirkətləri işğaldan azad edilmiş Qarabağ ərazilərində yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyevin tapşırığı ilə Pakistandan daxil olan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib. Azərbaycanla Pakistanın iqtisadi əməkdaşlığı üçün digər sahə isə nəqliyyat bağlantılarıdır. Belə ki, iki ölkə, həm Qara Dəniz, həm "Şimal-Cənub", həm də "Şərq Qərb" dəhlizlərində əməkdaşlıq imkanlarına malikdir. Ötən ilin

sentyabrında AZAL Bakıdan Lahora, noyabrda isə İslamabada və əks istiqamətdə birbaşa uçuşlara başlayıb. Ötən il iki ölkə arasında avtomobil yolları ilə tranzit karqo daşımalarının həcmi 33 min ton olub və bu rəqəm əvvəlki dövr ilə müqayisədə 53 faiz artım deməkdir. [Dostluğun, qardaşlığın və etibarın təntənəsi, s.2-3].

**3.Qardaşlamış şəhərlər**

Prezident İlham Əliyevin Pakistanda səfərdə olduğu günlərdə İslamabadda küçələrin Azərbaycanın dövlət bayraqları və Prezident İlham Əliyevin portretləri ilə bəzədilməsi, Bakı və İslamabadın qardaşlaşmış şəhərlər elan olunması Pakistan xalqının ölkəmizə böyük sevgisinin təzahürüdür. Pakistan Müdafiə Nazirliyinin sosial şəbəkə səhifəsində "Üç qardaş, bir ailə! Üç ölkə, bir millət!" paylaşımı da ölkələrimizin birlik və həmrəylik mövqeyinin ən səmimi ifadəsidir. Azərbaycan və Pakistan münasibətlərini səmimiyyət və hörmət, qarşılıqlı əməkdaşlıq üzərində quran və daim möhkəmləndirən dost və qardaş dövlətdir. Bu gün tərəflər bütün sahələrdə – siyasi, iqtisadi, enerji, hərbi, humanitar, mədəni müstəvidə əlaqələr davamlı olaraq gücləndirilməkdədir. Münasibətlərin mühüm xüsusiyyəti Pakistanın da Türkiyə kimi həmişə ədalətin tərəfində olması, Azərbaycanın haqq işini daim dəstəkləməsidir. Pakistan İslam aləmində inteqrasiya Ümummilli Lider Heydər Əliyevin 1996-cı ilin aprelində Pakistana səfəri çərçivəsində o vaxtkı Baş nazir Bənazir Bhutto ilə görüşü zamanı dostluq və əməkdaşlıq, ticarət, vergi, səhiyyə, turizm haqqında sazişlərin əks olunduğu 9 ikitərəfli sənəd imzalanmışdı. Prezident İlham Əliyev bu səfərindən öncə 2017-ci ilin aprelində Nəvaz Şərifin hökuməti dövründə Pakistana səfər edib. Bu səfər İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısı ilə bağlı olmuşdu. Prezident İlham Əliyevin İslamabada bu günlərdə baş tutan səfəri isə təkcə Azərbaycan və Pakistanın deyil, bütün dünya mətbuatının gündəmində əsas xəbərlərdən birinə çevrildi. Səfər zamanı Prezident İlham Əliyevin təyyarəsinin Pakistanın Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri tərəfindən qarşılanması və enənədək müşayiət edilməsi, dövlətimizin başçısının şərəfinə toplardan yaylım atəşi açılması, Azərbaycana və onun liderinə olan dərin hörmətin və ehtiramın təzahürü idi. Prezident İlham Əliyevin beynəlxalq səviyyədə geniş maraq doğuran Pakistan səfərini ölkələrimiz arasında qardaşlıq münasibətlərinin və yüksək səviyyəli əməkdaşlığın yeni dövrünün başlanğıcı hesab etmək olar. [Azərbaycan və Pakistan qardaşlığa, dostluğa əsaslanan siyasət yürüdür, s.3].

**4.Dostluq münasibətləri**

Pakistan İslam aləmində inteqrasiya və dostluq münasibətlərinə xüsusi önəm verən ölkələrin önündə gedir. 1991-ci ilin 12 dekabrında Azərbaycanın müstəqilliyini tanıyan Pakistanı bu məsələdə yalnız Türkiyə qabaqlaya bilib.

1993-cü il aprelin 30-da “Dağlıq Qarabağ münaqişəsi” ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib. Pakistan BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. Azərbaycana qarşı hərbi təcavüzə etiraz əlaməti olaraq bu günədək Ermənistanla diplomatik münasibətlər qurmayıb. Azərbaycan da öz növbəsində bütün beynəlxalq platformalarda Kəşmir probleminin ədalətli həlli üçün dəstəyini əsirgəmir. 44 günlük Vətən müharibəsi zamanı Pakistan Azərbaycanın haqq işini daim dəstəkləyib, Azərbaycan Ordusunun işğal olunmuş əraziləri azad etməsini böyük ruh yüksəkliyi ilə alqışlayıb. Müharibədən az sonra Azərbaycana səfər edən Pakistan Quru Qoşunlarının komandanı, ordu generalı Qamar Caved Bacva “*Azərbaycanın Qarabağ müharibəsində qələbəsi və öz ərazi bütövlüyünü bərpa etməsi hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisədir*” – deməsi, ümumilikdə, Pakistanın Azərbaycana münasibətini tam şəkildə açıqlayır. Dünya miqyasında ədalətli mövqeyin müdafiəsi kontekstində Vətən müharibəsi zamanı Türkiyə və Pakistanın mənəvi-siyasi dəstəyi Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi. 44 günlük müharibə zamanı üçtərəfli format güc sınağından uğurla çıxaraq özünü həqiqi dostların ittifaqı kimi təsdiqlədi. Bu dəstək müharibədən sonrakı dövrdə də davam edir. Türkiyə və Pakistan işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və burada genişmiqyaslı bərpa işlərinin aparılması üçün Azərbaycana lazımi kömək göstərir. Bir sözlə, Bakı ilə İslamabad arasında müttəfiqlik əlaqələrinin qurulması, həmrəylik, ikitərəfli səmimi qardaşlıq və dostluq əlaqələrinin genişləndirilməsi hər üç ölkənin həyati maraqlarına cavab verir. İqtisadi sahədə də əlaqələrin inkişafı üçün ciddi potensial var. [Neft və milyonlar səltənəti xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev, s.7].

**5.Azərbaycan diplomatiyası**

Qürurla qeyd edirik ki, Azərbaycan diplomatiyasının və dövlətimizin xarici siyasətinin uğurları bu gün gənc müstəqil respublikamızın dostları və tərəfdaşlarının sayını bədxahlarımızdan qat-qat çox edir. Hətta Avrasiyanın ən qüdrətli dövlətləri sırasında olan bir neçə ölkə var ki, onlar bilavasitə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə görə rəsmi ørəvanla diplomatik-əməkdaşlıq münasibətləri yaratmamışdı. Belə ölkələrdən biri də Pakistan İslam Respublikasıdır. Xatırladaq ki, bu iki Avrasiya ölkəsinin Azərbaycanla Pakistanın arasında öz qloballığı və regional məsələlərin oxşarlığı ilə xarakterizə edilən əlaqələr çoxdur. Bizim dövlət müstəqilliyimizin ilk günlərində Azərbaycanın istiqlaliyyətini Türkiyə və Rumıniyadan sonra tanıyan üçüncü ölkə məhz Pakistan olmuşdur. Həmin tarixi hadisədən cəmi bir neçə ay sonra bu iki ölkə arasında diplomatik

əlaqələr qurulmuşdur. Elə o gündən etibarən Dağlıq Qarabağ məsələsinin həlli yolunda aparılan müzakirələrdə Pakistan Azərbaycanı dəstəkləmiş, bütün beynəlxalq tribunalardan bizim haqq işimizi müdafiə etmişdir. Buna görə rəsmi Bakı tərəfindən də qarşılıqlı addımlar atılmışır. Belə ki, BMT qətnaməsinə əsaslanaraq Azərbaycan Respublikası da Pakistanı Kəşmir probleminin həllində dəstəkləyir. Bunu da xatırladaq ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycana dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa Pakistan İslam Respublikası sədrlik edirdi. Sonrakı illərdə də Pakistan Prezidenti, Baş naziri, parlamenti və digər dövlət qurumları, eləcə də ordu rəhbərliyi, ictimai-siyasi xadimlər Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyən və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü dəstəkləyən, dövlətimiz və xalqımızla həmrəyliyi əks etdirən müvafiq qətnamələr qəbul edib, bəyanatlar yayıblar. Pakistan Senatı 2022-ci il mayın 30-da Xocalı soyqırımını pisləyən qətnamə qəbul edib. Ölkələrarası siyasi əlaqələri qarşılıqlı təmaslar, müntəzəm görüşlər və səmərəli müzakirələr daha da intensivləşdirmişdir. Ölkəmizə dost olan digər dövlətlərlə münasibətlərimiz haqqında yazdığımız bir arqumenti bu yazıda da təkrar etməliyik ki, Azərbaycanla Pakistan arasındakı münasibətlərin indiki səviyyəyə çatmasının təməlində ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və onun işləyib hazırladığı siyasi kurs dayanır. Hamının xatırladığı kimi, ümummilli lider Heydər Əliyev 1994-cü ilin dekabrında Kasablankada Pakistanın Baş naziri Benazir Bhutto ilə görüşmüş və həmin görüşlə də ikitərəfli münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Sonra Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqarinin Bakıya, ulu öndər Heydər Əliyevin dost ölkəyə rəsmi səfərləri iki ölkə arasında əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edib. Bunu da əlavə edək ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan qarşılıqlı səfərlər ənənəsi Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlətimizin başçısının 2005-ci il aprelin 12-13-də Pakistana rəsmi səfəri, eləcə də 2017-ci il 28 fevral-1 mart tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısında iştirak etmək üçün dost ölkəyə işgüzar səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açıb, əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirib. Buda vurğulanmalıdır ki, İslamabadla Bakı ikitərəÀi əməkdaşlıqla kifayətlənmir, beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlıqdan da səmərəli şəkildə bəhrələnirlər. Bu gün Pakistan və Azərbaycan BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya Parlament Assambleyası, habelə Asiyada qarşılıqlı fəaliyyət və Etimad Tədbirləri üzrə .onfrans çərçivəsində də uğurla əməkdaşlıq edir, bir-birinə dəstək verirlər. Ötən ay Nyu-keçirilmiş

BMT-nin İqtisadi və Sosial Şurasının (EC2S2C) 2025-2027-ci illər üzrə üzvlüyünə seçkilərdə Azərbaycan Respublikasının namizədliyi, 2023-cü il yanvarın 24-də Daşkənddə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 26-cı iclasında Şuşa şəhərinin 2026-cı ildə İƏT-in turizm paytaxtı elan edilməsi üçün irəli sürülmüş təşəbbüs, ötən il oktyabrın 12-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfindən irəli sürülmüş və yüzdən çox ölkənin həmmüəllif olaraq qoşulduğu inkişaf hüququ üzrə qəbul olunmuş qətnamə Pakistan tərəfindən dəstəklənib. Uğurlu əməkdaşlığın ən son göstəricisi ilə bu ayın əvvəlində Astanada keçirilən İƏT formatında görüş çərçivəsində üç liderin Azərbaycan Prezidenti İlham Əliyevin, Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan üçtərəfli görüşü oldu. Ekspertlərin fikrincə, Azərbaycan, Pakistan və Türkiyə arasında bütün tərəÀərin qarşılıqlı maraqlarına xidmət edən və regional güc birliyini şərtləndirən bu əməkdaşlıq mexanizmi və həmin görüşdə müzakirə olunan məsələlər ölkələrimiz arasında əlaqələrin bütün sahələrini əhatə edir. Daha maraqlı fakt isə o idi ki, həmin görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıqla yanaşı, “üç qardaş” şüarı ilə keçirilən hərbi təlimlərin əhəmiyyəti vurğulanmış və üç ölkənin Silahlı qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklifi irəli sürülmüşdür. Azərbaycan-Pakistan dostluq və tərəfdaşlıq münasibətlərinə həsr edilmiş bu sətirləri Prezident İlham Əliyevin bir qiymətləndirməsi ilə tamamlayırıq: *“Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib. Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır”.* [Azərbaycan-Pakistan: əməkdaşlığın yeni səhifəsi, s.1-3].

**6.Nəticə**

Azərbaycanla Pakistanın əlaqələrinin dərin tarixi kökləri mövcuddur. Hər iki ölkənin xalqları bir-birlərinə qarşılıqlı hörmət bəsləyir, eyni dəyərlərə malik olması onlar arasında birlik və həmrəyliyi daha da möhkəmləndirir. Əminliklə deyə bilərik ki, bu gün Azərbaycan-Pakistan münasibətləri hər iki ölkənin dövlət rəhbərlərinin səyləri nəticəsində özünün ən yüksək inkişaf dövrünü yaşayır. Azərbaycanın Vətən müharibəsində qələbəsi və antiterror tədbirləri nəticəsində öz suverenliyini tam bərpa etməsi ilə Cənubi Qafqazda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ikitərəfli və çoxtərəfli əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır. Prezident İlham

Əliyevin 2024-cü il iyulun 11-12-sini əhatə edən dövlət səfəri Azərbaycan və Pakistan arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Hazırda da dərin tarixi olan dostluq münasibətləri yüksək səviyyədə davam etdirilir.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan-Pakistan münasibətlərində yeni dövrün başlanğıcı. (2024, July 16). *Xalq qəzeti*, p. 5.
**2.** Azərbaycan-Pakistan: əməkdaşlığın yeni səhifəsi. (n.d.). *Yeni Azərbaycan qəzeti*, pp. 1-3.
**3.** Azərbaycan və Pakistan qardaşlığa, dostluğa əsaslanan siyasət yürüdür. (2024, July 16). *Azərbaycan qəzeti*, p. 3.
**4.** Neft və milyonlar səltənəti xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev. (2023, January 25). *Respublika qəzeti*, p. 7.
**5.** Dostluğun, qardaşlığın və etibarın təntənəsi. (2024, July 12). *Səs qəzeti*, pp. 2-3.

## REFERENCES

**1.** The beginning of a new era in Azerbaijan-Pakistan relations. (2024, July 16). *Khalq newspaper*, p. 5. (in Azerbaijani)
**2.** Azerbaijan-Pakistan: a new page of cooperation. (n.d.). *New Azerbaijan newspaper*, pp. 1-3. (in Azerbaijani)
**3.** Azerbaijan and Pakistan pursue a policy based on brotherhood and friendship. (2024, July 16). *Azerbaijan newspaper*, p. 3. (in Azerbaijani)
**4.** Oil and millions kingdom philanthropist Haji Zeynalabdin Taghiyev. (2023, January 25). *Respublika newspaper*, p. 7. (in Azerbaijani)
**5.** Celebration of friendship, brotherhood and trust. (2024, July 12). *Ses newspaper*, pp. 2-3. (in Azerbaijani)